DOI:10.30546/gdu.2023.95-100

**UOT:94.**

# I YELİZAVETA TÜDORUN XARİCİ SİYASƏTİNDƏ NİDERLAND MƏSƏLƏSİNƏ DAİR

***t.ü.f.d. Məmmədova Yeganə Ehsan qızı***
***Gəncə Dövlət Universiteti***
***yegana.mammadova68@mail.ru***

**Xülasə:** *Mövcud məqalədə XVI yüzilin ikinci yarısında Qərbi Avropanın beynəlxalq münasibətlər sistemində xüsusi yer tutan Niderland məsələsinin İngiltərənin xarici siyasətinə təsirindən bəhs olunur. Belə ki, bu zaman İspaniyanın tabeliyində olan Niderlandda milli-azadlıq hərəkatı gedirdi. Bütün qonşu dövlətlər kimi İngiltərənin də bu ölkədə öz maraqları vardı. Bu səbəbdən də, I Yelizaveta özünün xarici siyasətində Niderland məsələsinə xüsusi diqqət yetirirdi.*

**Açar sözlər:** Yelizaveta Tüdor, Niderland, xarici siyasət, İngiltərə, beynəlxalq münasibətlər

**Ключевые слова:** Елизавета Тюдор, Нидерланды, внешняя политика, Англия, международные отношение

**Key words:** Elizabeth Tudor, the Netherland, foreign policy, England, international relations

Yelizaveta Tüdorun (1558-1603) hakimiyyəti dövründə İngiltərə hökümətinin xarici siyasətində aparıcı istiqamətlərdən biri də Niderland məsələsi olmuşdur. XVI əsrdə Avropanın iqtisadi cəhətdən ən inkişaf etmiş regionu olan Niderland ispan monarxiyasının tərkibinə qatılmışdı və ispan ağalığı ölkənin inkişafı yolunda başlıca maneəyə çevrilmişdi. Bu isə son nəticədə Niderlandda ispan ağalığına qarşı milli-azadlıq hərəkatının başlamasına gətirib çıxardır. Niderlandda başlayan milli-azadlıq hərəkatı Qərbi Avropada qüvvələr nisbətiunə ciddi Qərbi Avropada qüvvələr nisbətinə ciddi təsir göstərmişdir. Çünki burada üç böyük dövlətin: İspaniya, Fransa və İngiltərənin iqtisadi, siyasi və strateji maraqları toqquşurdu. Niderlandda üsyan başladıqdan sonra mürəkkəb hərbi və diplomatik mübarizə başlayır ki, İngiltərə bunda fəal şəkildə iştirak edirdi. Belə ki, İngiltərə Niderlandla sıx iqtisadi əlaqələrin saxlanılmasında maraqlı idi. Bütün lazım olan müstəmləkə məhsullarını və ishehlak edilən sənaye məmulatlarının əhəmiyyətli hissəsini İngiltərə əsasən Anterpervendən əldə edirdi. Eyni zamanda XVI əsrin 60-cı illərində Niderland bazarına 80-90 minə qədər mahud topunu çıxarırdı.

1566-cı ilin avqustunda başlayan və Niderlandda milli-azadlıq hərəkatının ilk aktı olan ikona əleyhdarları üsyanı Qərbi Avropanın beynəlxalq aləmində qüvvələrin yerləşməsini dəyişdirir və onların parçalanması prosesini sürətləndirir. Onun yatırılmasının ardınca Niderlandın hersoq Albanın ordusu tərəfindən işğalı və bununla əlaqədar mərkəzinin Niderlandda yerləşən Avropa ticarətinin pozulması İngiltərədə krallığın iqtisadi maraqlarına və dövlət təhlükəsizliyinə bilavasitə təhdid kimi qiymətləndirilirdi. Bununla əlaqədar olaraq ingilis-ispan münasibətləri qırılmağa başlayır. 1569-1571-ci illərdə İngiltərədə Vatikanla birlikdə İspaniyanın təşkil etdiyi katolik sui-qəsdlərinin açılıb boğulmasından sonra münasibətlər daha da gərginləşir (2, s. 202).

Niderland hadisələrinin təsiri ilə ingilis-fransız ziddiyyətləri arxa plana keçərək öz yerini iki dövlət arasında yaxınlaşmaya verir. Lakin qeyd etmək lazımdır ki, ingilis-fransız yaxınlaşması olduqca qeyri-sabit idi və dəfələrlə silahlı münaqişə ilə əvəz olunmağa hazır olmuşdur. Lakin belə bir qeyri-sabitliyə baxmayaraq bu dövlətlər özlərinin xarici siyasət kombinasiyalarının əsas zərbəsini İspaniyaya qarşı yönəltmişdilər.

DOI:10.30546/gdu.2023.95-100

1570-ci ilin başlanğıcında İngiltərə və Fransanın İspaniya ilə ziddiyyətləri elə bir dərəcəyə çatır ki, artıq ingilis-fransız ittifaqının yaradılması tamamilə vaxtı çatmış məsələ olur. Bu dövrdə ingilis diplomatiyasının nəzərində Niderlanddakı hadisələrin xarakteri məsələsi 70-ci illərin sonunda qazanacağı əhəmiyyətə malik deyildi və əsasən "ispan problemi"nin tərkib hissəsi kimi baxılırdı.

Bu zaman Yelizaveta sarayında Uolsinqem və Lester partiyası güclü idi. Onların ekspansionist məqsədləri diplomatik olaraq dini mülahizələrlə pərdələnirdi. 1570-ci ilin avqustunda Uolsinqem Parisdə İngiltərənin səfiri təyin edilir. Zadəganlaşmış burjua ailəsindən çıxmış, alovlu kalvinist, Mariyanın hakimiyyəti dövründə mühacirətdə olan Uolsinqem İspaniyanın barışmaz düşməni və Niderland tərəfdən İngiltərənin açıq çıxışının tərəfdarı idi (2, 202). Uolsinqemə verilən təlimatlarda Yelizavetanın Anjulu Henrixlə nikahı haqda əvvəl başlanmış danışıqları davam etdirmək və ingilis-fransız münasibətlərinin hər cəhətdən yaxşılaşmasına nail olmaq tapşırılmışdı (1, 205).

Nikah haqda gedən danışıqların alınmadığını görən Uolsinqem İngiltərə ilə Fransa arasında müdafiə və hücüm ittifaqının bağlanmasının layihəsini irəli sürür. Eyni zamanda Yelizaveta ilə hersoq Alansonlu Fransisk arasında Niderlandın İngiltərə ilə Fransa arasında bölüşdürülməsi planının hazırlanması ilə müşayət olunan nikah layihəsidə yaranır (2, 205).

Uolsinqem və onun partiyası İspaniyaya qarşı Niderlandda hətta hərbi müdaxiləyə qədər ən fəal əməliyyatlara tərəfdar idi. Belə ki, burada İspaniyanın ən zəif yerlərini görürdülər. II Filippin qüvvələrini Niderlandda buxovlamaqla İngiltərə bununla onun müstəmləkə mülklərinin və dəniz kommuikasiyasının müdafiəsini zəiflədər və ingilis kaperləri üçün daha geniş fəaliyyət təmin edərdi.

Fransada dini müharibələrin gedişində yaranmış növbəti sakitlikdən və hugenotların artan təsirindən istifadə edərək Oranı Vilhelmin diplomatik emissarı Nassaulu Lüdovik fransız kralı IX Karl və onun diplomatik nümayəndələri ilə danışıqlar aparmağa başlayır. 1571-ci ilin yayında bu danışıqlar artıq Niderlandın bölüşdürülməsinin konkret planı formasını alır. Flandriya və Artuanı Fransaya vermək, Brabant və bir sıra digər vilayətləri İmperiyaya birləşdirmək, Oranlı Vilhelmi Brabant kürfürstü etmək, Hollandiya və Zelandiyanı isə İngiltərəyə aid etmək nəzərdə tutulurdu (2, 205).

Eyni zamanda İngiltərənin dəstəyinə nail olmaqdan ötrü Nassaulu Lüdovik Parisdəki ingilis nümayəndəsi ilə də danışıqlar aparırdı. Sonuncunu IX Karlla apardığı danışıqların məzmunu və hazırlanan 1572-ci il hərbi kampaniyasının planı ilə tanış edərək İspaniyanın İngiltərəyə münasibətdə barışmaz düşmənçiliyə və Flandriya ekspedisiyasında təkbaşına iştirak edəcəyi halda Fransanın İngiltərə üçün təhlükəli olan son dərəcə güclənməsinə işarə edərək öz tələblərini irəli sürür: İngiltərə Oranlı şahzadəyə hərbi və maliyyə yardımı göstərməli, onunla rəsmi ittifaq bağlamalı və admiral Qoukinsə İspaniyanın dəniz kommunikasiyalarına zərbə vuracaq əməliyyat əmri verməli idi (2, 206). Həmçinin protestant knyazlarının hazırlanan liqasına başçılıq etməklə İngiltərə Avropada əhəmiyyətli dərəcədə öz mövqeyini möhkəmləndirmək imkanını əldə edəcəkdi. Lakin İngiltərədə bu zaman Uolsinqem-Lester partiyası deyil, onlara əks mövqədə dayanan Berli partiyası hakim mövqeyə malik olduğu üçün Nassaulu Lüdovikin bu təklifinə olduqca ehtiyatla yanaşılır (2, 207).

Bundan başqa İspaniya ilə münasibətlərin daha da mürəkkəbləşməsindən ehtiyat edən və Fransaya inanmayan Yelizaveta 1572-ci ilin yazında xüsusi dekretlə ingilis limanlarında ispanlardan gizlənən dəniz gözlərini qovur. Bu hadisə öz ardınca böyük effekt doğurur. Dəniz gözlərinin Bril limanını tutmaları (1 aprel 1572-ci il) Hollandiya və Zelandiyada üsyanın ildırımsürətli uğurları yalnız Niderlanddakı siyasi şəraiti kökündən dəyişmir, həm də Avropadakı qüvvələrin ümumi yerləşdirilməsinə öz təsiri göstərir. 1572-ci il üsyanı İngiltərə

DOI:10.30546/gdu.2023.95-100

və Fransanı qarşılıqlı yardım haqda müdafiə ittifaq müqaviləsini bağlamağa tələsməyə məcbur edir və müqavilə 19 aprel 1572-ci ildə Bluada bağlanır (2, 207; 1, 165).

İngiltərə yalnız diplomatik təbdirlərlə kifayətlənməyərək Niderland işlərinə açıq silahlı müdaxilə etməyə də başlayır. Bu hersoq Albanın zülmünə qarşı məzlumlara yardım bəhanəsi adı maskalansa da əslində ingilis diplomatiyası Niderland işlərinə müdaxilə etməklə öz məqsədlərini həyata keçirməyə çalışırdı. İlk məsələ II Filippin İngiltərə daxilindəki təxribatçı fəaliyyətini sarsıtmaq, ikinci məsələ isə İngiltərənin Niderlanddakı iqtisadi və strateji maraqlarını təmin etmək idi.

Artıq 1572-ci il ilin yazında ingilis dəstələri Niderland ərazisinə çıxarılır və ilk gundən də ingilislərin "mehriban qonşuluq" yardımının xarakteri ortaya çıxır. İngilis diplomatiyası hər bir vasitə ilə ya Niderlandın II Filippin nominal ağalığı altında müstəqil vəziyyətini qorumağa çalışır, ya da onların ərazisində özünə sanballı bir hissə əldə etməyə çalışırdı. Bu İngiltərəyə tədricən Niderlandı tabe etmək imkanını verirdi. Eyni zamanda həmçinin Niderlandın Fransa tərəfindən işğalı imkanı təhlükəsindən İngiltərənin özünü təmin etməsinə səbəb ola biləcəkdi. Beləliklə, Niderlanda ingilis xarici siyasətinin obyekti kimi baxılırdı.

Fransada baş verən Varfolomey qırğını (24 avqust 1572-ci il) Qərbi Avropada siyasi vəziyyətin kökündən dəyişməsinə səbəb olur. İspaniya ilə təkbətək qalmış Yelizaveta II Filipplə barışmaq məqsədilə istənilən güzəştə getməyə hazır idi. Bununla əlaqədar Niderlanddakı bütün ingilis qoşunları geri çağrılır. Niderlanddakı ispan nümayəndəsi ilə Nimvegen sazişi imzalanır (2 mart 1573-cü il). 2 il müddətinə bağlanmış bu sazişdə nəzərdə tutulurdu: 1) 1 aprel 1573-cü ildən qarşılıqlı dostluğun və ticarətin bərpa edilməsini; 2) düşmənçilik fəaliyyətilə məşğul olan siyasi mühacirlərin hər iki tərəfdən qovulmasını; 3) dənizlərdə quldurluğa son qoyulmasını; 4) əvvəllər keçirilmiş müsadirələrdə hər iki tərəfə dəymiş ziyanları ödəmək haqda danışıqların aparılmasını (2, 209).

Beləliklə, 70-ci illərin birinci yarısında İngiltərə ilə İspaniya arasında yaxınlaşma başlayır. Yelizaveta öz təbəələrinə "qiyamçı əyalətlərlə" əlaqə saxlamağı belə qadağan edir (4, 78). Lakin ingilis-ispan münasibətlərində yaxınlaşma uzun sürmür. İspaniya ilə sövdələşməklə Niderlandda fransız ekspansionist planlarını neytrallaşdırmaq mümkün olmadıqda ingilis diplomatiyası yenidən müəyyən vəsait hesabına İngiltərənin Niderlandla bağlı layihələrini həyata keçirəcək marionetkalar axtarışına başlayır. İngilis diplomatiyası imperiya qrafı Pfalslı İoann Kazimir və Yelizavetaya adaxlı hesab olunan hersoq Anjulu Fransisk üzərində dayanır (3, 74).

Artıq 1575 və 1578-ci illər arasında İngiltərədə Niderlanda yalnız İngiltərənin olduqca mühüm iqtisadi və strateji maraqlarının olduğu ölkə kimi deyil, həm də inqlab baş verən ölkə kimi münasibət müəyyənləşir. Bu dövrdən başlayaraq İngiltərənin Niderlandda inqlabi qüvvələrin və milli-azadlıq demokratik hərəkatanın boğulmasına yönəlmiş siyasəti tam müəyyənlik əldə edir. Belə bir şəraitdə hər iki rəqib saray partiyalarının (Lester – Uolsinqem və Berli) siyasi məqsədləri bir-birindən çox az fərqlənirdi. Hər iki partiya Niderlandda ingilis iqtisadi və hərbi maraqlarının təntənəsini təmin etməyə, İngiltərəni İspaniyanın fitnə-fəsadlarından qorumağa, fransız ekspedisiyasını Flandriyada təcrid etməyə, gələcəkdə Niderlandın özləri üçün təhlükəli rəqibə çevrilməməsindən ötrü buradakı radikal-burjuaziya və xalq hərəkatını boğmağa çalışırdı. Onlar yalnız öz məqsədlərinin həyata keçirilməsi metodlarında ayrılırdılar. Berli partiyası bu məsələləri mürəkkəb diplomatik manevrlər və üçüncü şəxslərin vasitəsilə həyata keçirmək istəyirdisə, Lester – Uolsinqem partiyası ehtiyatlılığı bir kənara ataraq Niderlandda "qayda-qanunun" yaradılmasına tərəfdar idi (2, 212).

1578-1582-ci illərdə ingilis diplomatiyası öz qarşısında aşağıdakı əsas məsələləri qoymuşdu: Fransanı İspaniya ilə açıq münaqişəyə cəlb etmək və öz üzərində arbitr rolunu

DOI:10.30546/gdu.2023.95-100

saxlamaq; Portuqaliyada gedən sülalə mübarizəsindən istifadə edərək bu ölkənin müstəmləkələrini ələ keçirmək; Niderlanddakı fransız ekspedisiyasını ingilis siyasətinin məcrasına yönəltmək; "milli" irticaçı və mühafizəkar partiyalarla, ilk növbədə isə oranjistlərlə ittifaqda Niderlandda inqlabi-demokratik hərəkatı boğmaq (2, 212).

İngilis diplomatiyası bütün bu məsələləri üçüncü şəxslərin əli ilə həyata keçirmək və bu zaman nəyin bahasına olursa-olsun İspaniya ilə bilavasitə hərbi münaqişədən qaçmaq istəyirdi. Uzun müzakirədən sonra Anju hersoqunun namizədliyi üzərində dayanılır. Onu Yelizaveta ilə nikah haqda danışıqların aktivləşdirilməsi və pul təklif olunması ilə öz tərəflərinə çəkmək nəzərdə tutulurdu. Hersoqun Yelizaveta ilə nikahı perspektivi fransız sarayını təskin edir və Fransanın xarici siyasətini İngiltərə üçün lazımi istiqamətə yönəltməyə imkan verirdi. İngiltərə bu zaman Fransanı İspaniya ilə müharibəyə cəlb etmək və bundan özü üçün faydalanmağa çalışırdı. Bundan sonra İngiltərə ilə Fransa arasında diplomatik münasibətlər canlanır ki, bunun da əsasını Niderland məsələsi təşkil edirdi.

Qeyd etmək lazımdır ki, Yelizaveitanın Anju hersoqu ilə nikahın özünə heç vaxt ingilis hakim dairələri tərəfindən real imkan kimi baxılmamışdır və "nikah diplomatiyasında" yalnız öz məqsədlərinə çatmaq vasitəsini görürdülər.

Beləliklə, ingilis diplomatiyası nikah danışıqları və pul vəd etməklə Anju hersoqunu Niderlandda yürüş etməyə razı salır. Lakin fransız sarayı böyük narahatlıqla ingilis diplomatiyasının fəaliyyətini izləyir və aktiv surətdə yürüşün baş tutmamasına çalışırdı. Bu yürüşün baş tutacağı təqdirdə İspaniya ilə müharibənin qaçılmaz olduğu açıq idi.

1578-1579-cu illər yalnız ingilis-fransız danışıqlarının fəallaşması ilə deyil, həm də Avstriya Habsburqlarının xarici siyasət fəaliyyətinin aktivləşməsi ilə xarakterizə olunur. İmperiya özünün də iqtisadi və siyasi maraqlarının olduğu Niderlandda şəraiti Baş Ştatlar və Oranlı Vilhelmlə danışıqlar yolu ilə "nizamlamaq" üçün bütün vasitələrdən istifadə etmək və bununla da İspaniyaya yardım göstərmək istəyirdi. Lakin imperiya vasitəçiliyi uğur qazanmır (6).

Portuqaliyada müharibənin başlanması (1580-ci ilin yayı) Flandriya yürüşünü arxa plana keçirir. İngiltərənin İspaniya ilə apardığı ticarət müharibəsində Portuqaliya məsələsi ön plana çıxır. Portuqaliya ekspedisiyasına birgə ingilis-fransız hazırlığı şəraitində Yelizaveta ilə Anju hersoqunun nikah müqaviləsi imzalanır (11 iyun 1581-ci il). Bunun ardınca Yelizaveta hersoqun Niderland ekspedisiyası ilə bağlı xərclərdən azad edilməsini və Gizlərin tərəfdarlarının müvəqqəti olaraq üstünlük əldə etdikləri Şotlandiyada güzəştlərin edilməsini tələb edir (2, 218).

Bu zaman ingilis diplomatiyası üçün əsas vəzifə nikah deyil, ingilis-fransız müdafiə və hücum ittifaqının bağlanması əsasında İspaniya ilə mübarizə təşkil edirdi. Flandriya ekspedisiyası da bu planın tərkib hissəsinə daxil idi və onun reallaşmasını təmin etmək tapşırılmışdı. Fransız diplomatiyası bu danışıqlarda qələbə qazana bilmir. Anju hersoqu demək olar ki, müqavimət göstərmədən İngiltərənin əsas tələblərini: nikahın təxirə salınmasını və ingilis-fransız ittifaqının nikaha qədər bağlanmasını qəbul edir (3, 87). Bundan sonra ingilis diplomatiası Fransanı İspaniya ilə təkbətək qoyur.

Fransız sarayı İngiltərə ilə diplomatik mübarizədə məğlub olduğunu anlasa da İngiltərəyə Anju hersoqunun başçılığı ilə yeni səfirlik göndərməklə vəziyyəti xilas etmək qərarına gəlir. Lakin bu cəhd də uğursuzluqla nəticələnir. Yelizaveta nişanın pozulmuş hesab olunmasını hersoqa bildirir (7). 10 min funt və hərbi əməliyyatların aparılmasının sonrakı təxsis olunması vədilə hersoq İngiltərəni tərk edir (2, 221).

Yelizaveta fransız diplomatiyasının Gizlərin və İspaniyanın gizli surətdə təşkil etdikləri şotland hadisələrinə III Henrixin heç bir aidiyyəti olmamasına inandırmalarından istifadə edərək Şotlandiyadakı katolik partiyasını darmadağın edir. Eyni zamanda kraliça

DOI:10.30546/gdu.2023.95-100

görünməmiş inadkarlıqla Anju hersoqu ilə nikahın bağlanmasını tələb edir. Fransız diplomatiyası yenidən aldanır. III Henrix əgər İngiltərə hersoqun nikahının yaxud Niderland ekspedisiyasının nəticəsində İspaniya ilə müharibəyə cəlb olunacağı halda Yelizavetaya hərbi yardıma zəmanət verirdi. Bundan əlavə İngiltərəni Niderland espediyasını maliyyələşdirməkdən də azad edir (2, 221). Beləliklə, ingilis siyasətinin qarşısında olan məqsədlərə nail olduqdan sonra ingilis diplomatiyası qəti olaraq nikah məsələsini gündəlikdən çıxarır.

Anju hersoqunun Niderland yürüşü iflasa uğrayır. Lakin İngiltərənin Niderland məsələlərinə marağını məhv etməyərək Lester-Uolsinqem partiyasının mövqeyinin möhkəmlənməsinə şərait yaradır.

Yelizaveta Niderlandın hakim oliqarxiyası taktikasının əvvəlki kimi qalmasından istifadə edərək ingilis-Niderland ittifaqının bağlanmasına nail olur. İngiltərə Niderlanda başda ingilis qubernatoru olmaqla beş min əsgər göndərməyi öz öhdəsinə götürür. Dövlət şurasına iki ingilis müşaviri daxil edilirdi. Hər iki tərəf rəqiblə separat danışıqlara getməməyə söz verirdi. İnqlabın beşiyi olan Bril və Flissinqen ingilis borcuna zəmanət adı altında İngiltərənin nəzarətinə verilir. Bundan başqa Hollandiyada ingilis tacirlərinin faydalandığı pul islahatı da keçirilir (2, 222).

1585-ci ildə 50 ingilis gəmisi Niderland sahillərinə yanaşır ki, bu da İngiltərənin açıq-aşkar Niderland işlərinə müdaxilə etməsi demək idi. İngilis baş komandanı qraf Lester hollandlardan Niderland Birləşmiş Əyalətlərinin Baş qubernatoru titulunu qəbul edir (5). İngiltərə ilə ittifaq bütövlükdə Niderland üçün, xüsusən də holland burjuaziyası üçün Anju hersoqu ilə ittifaqdan daha təhlükəli idi. Çünki ingilis siyasətinin rəsmi kursu Britaniyanın iqtisadi maraqlarının və hərbi-siyasi təhlükəsizliyinin təmin olunması qayğısına qalırdı və lazım gələrdisə Niderland buna qurban veriləcəkdi.

Qeyd etmək lazımdır ki, Niderlandda inqlabi-demokratik qüvvələrin hakimiyyəti İngiltərə üçün ispan ağalığından daha təhlükəli idi. İngilis “puritan” partiyası siyasi ağalığa can atan holland ticarət burjuaziyasında özünün təhlükəli rəqibini və gələcəkdə qatı düşmənini görürdü. Buna görə də ingilis diplomatiyası hər bir vasitə ilə onu zəiflətmək istiqamətini götürür. Yelizaveta Birləşmiş əyalətlərin Baş ştatlarından II Filipp qarşısında güzəştə getməyi tələb edir. Çünki yuxarıda qeyd edildiyi kimi ingilis mütləqiyyəti, ingilis burjuaziyası üçün irticaçı İspaniya inqlabi Niderlanddan daha az təhlükə törədirdi.

***Ədəbiyyat***

1. Мортон А. История Англии. М. 1950
2. Чистозвонов А.Н. Английская политика по отношению к революционным Нидерландам (1572-1585 гг.)-Средние века. Вып. 5, М. 1954
3. Черняк Е.Б. Тайны Англии. М. 1996
4. Штокмар В.В. Очерки по истории Англии в XYI веке. Л. 1957
5. http: //www.vestnik.com/issuts/2003/0514/win/dukhanina.htm-69k.
6. http://www.omsu.omskreg.ru/histbook/articles/y1998/a136/articles.html
7. http: //www.uk.ru/history/tudors.html.

## К ВОПРОСУ О НИДЕРЛАНДАХ ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ ЕЛИЗАВЕТЫ I ТЮДОР

***Мамедова Йегана Ехсан кызы***

***Резюме***

Данная статья посвящена изучение внешней политике Англии времен Елизаветы Тюдор. Во второй половине XVI века вопрос о Нидерландах занимал важное место в системе международных отношений Западной Европы. В то время английская

DOI:10.30546/gdu.2023.95-100

внешняя политика уделяла особое внимание проблеме Нидерландов. В общем, текущая статья была посвящена этому вопросу.

## ON THE ISSUE OF THE NETHERLANDS IN THE FOREIGN POLICY OF ELIZABETH I TUDOR

***Mammadova Egana Ehsan***

***Summary***

This article is devoted to the study of the foreign policy of England during the time of Elizabeth Tudor. In the second half of the 16th century, the question of the Netherlands occupied an important place in the system of international relations in Western Europe. At that time, British foreign policy paid special attention to the problem of the Netherlands. In general, the current article was devoted to this issue.

***Rəyçi: dos. V. Veysəlova***
***Ümumi tarix kafedrasının 24 may 2023-cü il tarixli iclasın 09 saylı protokolu***
***Daxil olma tarixi 13 iyul 2023-cü il***